*Siz, əziz Qazaxlılar! Burada həm öz torpağınızı qoruyursunuz, həm Azərbaycanı qoruyursunuz. Siz bütün Azərbaycan xalqının dayağısınız.*

*Heydər Əliyev.*




# GÖYƏZƏN

QAZAX RAYONUNUN İCTİMAİ - SİYASİ QƏZETİ

№ 3-4 (9235-9236) | 15 mart 2017-ci il | Qəzet 1932-ci ildən çıxır | Qiyməti 50 qəpik


## XOCALI SOYQIRIMI - 25

## Rayonumuzda Xocalı soyqırımı qurbanlarının xatirəsi anılmışdır



**Xocalı soyqırımının 25-ci ildönümü münasibətilə respublikanın hər yerində olduğu kimi, rayonumuzda da bir sıra silsilə tədbirlər həyata keçirilmişdir.**

Rayonun bütün yaşayış məntəqələrində, idarə, müəssisə və təşkilatlarında Xocalı qurbanlarının xatirəsi anılmış, təhsil, səhiyyə və mədəniyyət müəssisələrində soyqırıma həsr edilmiş foto, rəsm, şeir və inşa yazı müsabiqələri, ali və orta ixtisas təhsil müəssisələrində elmi-praktik konfranslar keçirilmişdir.

Rayonun bütün yaşayış məntəqələrində Azərbaycanın dövlət bayraqları endirilmiş və həmin gün rayon ərazisində soyqırım qurbanlarının xatirəsi bir dəqəqəlik sükutla yad edilmişdir.

Tədbirlər çərçivəsində Şəhidlər Xiyabanında Xocalı soyqırımının 25-ci ildönümü münasibətilə anım mərasimi keçirilmişdir.

Mərasimdə rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov, hərbi hissələrin və hüquq-mühafizə orqanlarının şəxsi heyəti və əməkdaşları, çoxsaylı əmək kollektivləri, müharibə və əmək veteranları, gənclər, QHT və KİV nümayəndələri, yüzlərlə rayon sakini iştirak edərək şəhidlərin xatirəsinə ucaldılmış abidə önünə qərənfil dəstələri qoymuşlar.

Qazax şəhərində və rayonun kəndlərində olan məscidlərdə Xocalı soyqırımı qurbanlarının xatirəsinə dualar oxunmuş, insanlar Şəhidlər Xiyabanına gələrək faciə qurbanlarının xatirəsini anmışlar.

Sonra Qazax rayon Mədəniyyət Mərkəzində Xocalı soyqırımının 25-ci ildönümünə həsr olunmuş, yazıçı-dramaturq Hüseynbala Mirələmovun eyniadlı pyesi əsasında hazırlanmış "Xəcalət" tamaşası göstərilmişdir.

**Elçin İSMAYIL**

## Qazax rayon İcra Hakimiyyətində anım tədbiri keçirilmişdir

**Xocalı soyqırımının 25-ci ildönümü münasibətilə respublikamızın hər yerində olduğu kimi, rayonumuzda da bir sıra silsilə tədbirlər həyata keçirilmişdir. Rayon İcra Hakimiyyətinin akt zalında keçirilən tədbirdə Xocalı faciəsi qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilmiş, sonra Xocalı soyqırımını özündə əks etdirən filmə baxılmışdır.**





Qazax RİHB Aparatında sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Gündüz Abışov giriş sözü ilə çıxış edərək tədbirin məqsəd və əhəmiyyətindən danışmışdır.

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov tədbirdə çıxış edərək bildirmişdir ki, erməni daşnakları həmişə torpaqlarımıza qarşı ərazi iddiası qaldırmış və zaman keçdikcə rus imperiyasının köməyi ilə həmin iddianı gerçəkləşdirmişlər. XX əsrin ən dəhşətli faciəsi olan Xocalı soyqırımı ermənilərin genosid və cinayətkar siyasəti nəticəsində baş vermişdir. Bu faciə təkcə Azərbaycan xalqına deyil, ermənilərin bütün insanlığa, bəşəriyyətə qarşı törətdiyi ən ağır cinayətlərdən biridir. 1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə ermənilər tərəfindən törədilmiş soyqırımda 613 nəfər qətlə yetirilmişdir. Həlak olanların 70 nəfəri qoca, 63 nəfəri uşaq, 106 nəfəri qadın olmuşdur. Bundan başqa 1275 nəfər əsir götürülmüş, 150 nəfər itkin düşmüşdür. Əsir götürülən və itkin düşənlərin taleyi indi də məlum deyildir. Həmin vaxt dünya ictimaiyyətinin diqqəti bu dəhşətli soyqırıma yönəldilməli və hadisəyə hüquqi-siyasi qiymət verilməli idi. Lakin o vaxtki hakimiyyət tərəfindən bunların heç biri edilmədi, hadisənin əsl mahiyyəti xalqdan gizlədildi. Lakin ümummilli lider Heydər Əliyevin Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra Azərbaycan xalqına və dünya ictimaiyyətinə hadisə barədə məlumat verildi. Bu qəddar cinayətin ilk hüquqi-siyasi qiymətini də ulu öndər, ümummilli lider Heydər Əliyev verdi. Onun təşəbbüsü ilə Milli Məclisin 1994-cü ilin fevral ayında keçirilən iclasında Xocalı soyqırımı geniş müzakirə edildi, bu hadisəyə siyasi-hüquqi qiymət verildi. Xocalı soyqırımı ilə bağlı qəbul edilmiş qərarla fevral ayının 26-sı "Xocalı soyqırımı günü" elan olundu.

Ölkəmizdə və dünya miqyasında bu istiqamətdə böyük işlərin aparılmasının və geniş tədbirlərin həyata keçirilməsinin nəticəsidir ki, artıq dünyanın bir sıra böyük dövlətləri tərəfindən Xocalı faciəsi soyqırım kimi tanınmışdır.

R.Babaşov çıxışını Respublika Prezidenti İlham Əliyevin Xocalı soyqırımı ilə bağlı söylədiyi aşağıdakı sözlərlə bitirmişdir: "Azərbaycana qarşı erməni şovinist dairələrinin XIX-XX əsrlərdə mərhələ-mərhələ həyata keçirdiyi etnik təmizləmə siyasətinin tərkib hissəsi olan Xocalı soyqırımı haqqında həqiqətlər dünya ictimaiyyətinə, xarici ölkələrin parlamentlərinə çatdırılmalı, Azərbaycan xalqının və ümumən insanlığın əleyhinə yönəlmiş bu son dərəcə ağır hərbi cinayət beynəlxaq miqyasda öz hüquqi-siyasi qiymətini almalıdır".

Qazax rayon İcra Hakimiyyəti Başçısının müavini Gulaya Həsənova məruzə ilə çıxış edərək Xocalı hadisələrindən, xalqımızın başına gətirilən müsibətlərdən söz açmışdır.

Sonra çıxışlar olmuşdur. Qazax RİHB Aparatının məsləhətçiləri Müşviq Pirverdiyev, Ülviyyə Namazova, Vəfa Cəbiyeva, aparıcı məsləhətçi Seymur Comərdov və baş məsləhətçi Svetlana Qurbanova çıxış edərək Xocalı faciəsinin XX əsrdə Azərbaycan xalqına qarşı törədilmiş ən ağır, ən dəhşətli soyqırımlardan biri olmasından söz açmışlar.

## Rayonumuzda məktəblilər Xocalıdan danışmışdır





**Xocalı soyqırımının 25-ci ildönümü münasibətilə rayonun Daş Salahlı, Yuxarı Salahlı və II Şıxlı kəndlərində anım tədbirləri keçirilmişdir. Şəhidlər Xiyabanında və Abidə Komplekslərində keçirilən tədbirdə faciə qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilmiş, dualar oxunmuşdur.**



Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov anım tədbirlərində iştirak etmişdir.

Tədbirlərdə çıxış edən Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov Xocalı soyqırımından, ermənilərin zaman-zaman azərbaycanlılara qarşı törətdiyi vəhşiliklərdən danışmışdır. Vurğulamışdır ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni daşnaklarının terrorçu qrupu o zaman Xankəndidə yerləşən keçmiş sovet imperiyasının 366-cı motoatıcı alayının iştirakı ilə Xocalı şəhərini yerlə yeksan etmişdir. O gecə erməni qaniçənləri tərəfindən 613 nəfər qətlə yetirilmiş, 487 nəfər yaralanmış, 1275 nəfər isə əsir götürülmüşdür. 150 nəfər Xocalı sakinindən bu günə kimi xəbər yoxdur.

R.Babaşov bildirmişdir ki, xalqımızın dahi oğlu Heydər Əliyev Azərbaycanda siyasi hakimiyyətə qayıtdıqdan sonra bu faciəyə hüquqi-siyasi qiymət verilmişdir.

Bu gün Azərbaycan dövləti erməni şovinistlərinin azərbaycanlılara qarşı törətdikləri cinayətlər, o cümlədən Xocalı soyqırımı haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Xocalı faciəsinin soyqırımı kimi tanınması üçün məqsədyönlü fəaliyyət göstərir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev torpaqlarımızın azad olunması, qaçqın və məcburi köçkünlərimizin öz doğma yurdlarına qayıtması, Ermənistan hərbi birləşmələrinin ərazilərimizdən qeyd-şərtsiz çıxarılması istiqamətində ardıcıl iş aparır.

Tədbirdə şəhid anaları, valideynlər çıxış edərək son vaxtlar Daş Salahlı, Yuxarı Salahlı, II Şıxlı, eləcə də şəhərdəki Şəhidlər Xiyabanlarında və Abidə Komplekslərində təmir-bərpa işlərinin aparılmasına görə rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşova kənd sakinləri adından öz dərin minnətdarlıqlarını bildirmişlər. Çıxışlarda Xocalı faciəsi ilə əlaqədar son illər dünya ictimaiyyətinə ətraflı məlumat verilməsi istiqamətində ciddi tədbirlər həyata keçirildiyi qeyd olunmuş, artıq dünyanın bir neçə ölkəsinin parlamentlərində Xocalı faciəsinin soyqırım kimi tanınmasından söz açılmışdır.

Sonra Araz Əmilov adına Daş Salahlı kənd 1 saylı tam orta məktəbin, Şahin Cəbiyev adına Daş Salahlı kənd 2 saylı tam orta məktəbin, Zahid Mahmudov adına Yuxarı Salahlı kənd tam orta məktəbin, Valeh Musayev adına İkinci Şıxlı kənd tam orta məktəbin və Şahnabad Nəsibova adına Sarıvəlli kənd tam orta məktəbin şagirdləri Xocalı soyqırımının 25-ci ildönümünə həsr olunmuş ədəbi-bədii kompozisiya nümayiş etdirmişlər. Əllərində "Xocalı - 25", "Xocalıya ədalət" və "Xocalı soyqırımı" sözləri yazılmış plakatlar tutmuş məktəblilər Xocalı faciəsinə, Vətənə və şəhidlərimizə həsr olunmuş şeirlər söyləmişlər.

**"GÖYƏZƏN"**

## Məcburi köçkün məktəbində Xocalı faciəsi anılmışdır

**Xocalı soyqırımının 25-ci ildönümü ilə əlaqədar Aşağı Əskipara kənd tam orta məktəbində anım tədbiri keçirilmişdir. Tədbir iştirakçıları əvvəlcə məktəbin dəhlizində "Xocalı faciəsi - 25" adlı foto-sərgiyə baxmışlar.**



Sonra məktəblilər Şəhidlər Xiyabanına gələrək şəhidlərin əziz xatirəsini yad etmişlər.

Tədbirdə iştirak edən Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov çıxış edərək Xocalı faciəsi barədə danışmışdır. Qeyd etmişdir ki, 25 il əvvəl törədilən Xocalı faciəsi insanlığa qarşı həyata keçirilən ən amansız vəhşilikdir. Həmin gün əliyalın dinc sakinlərə qarşı törədilən faciədə 613 nəfər şəhid olmuş, 487 nəfər şikəst olmuş, 1275 nəfər dinc sakin isə girov götürülmüşdür. Rayon rəhbərliyi qeyd etmişdir ki, şəhidlərə ehtiram göstərmək hər birimizin vətəndaşlıq borcudur. Bununla əlaqədar Qazaxdakı Şəhidlər Xiyabanında təmir-bərpa işləri aparılmış, xiyaban əsaslı şəkildə yenidən qurulmuşdur. Rayon rəhbərllyi şəhidlərin qanının yerdə qalmayacağını və düşməndən qisas alınacağını əminliklə qeyd etmişdir.

Sonra məktəblilər Xocalı faciəsinə, şəhidlərə həsr olunmuş şeirlər söyləmişlər.

Tədbir iştirakçılarına "Əsrin faciəsi - 25" adlı buklet paylanılmışdır.

## Bakı Dövlət Universitetinin Qazax filialında anım mərasimi və elmi-praktik konfrans olmuşdur



**Qazax rayon İcra Hakimiyyətinin və Bakı Dövlət Universiteti Qazax filialının birgə təşkilatçılığı ilə Xocalı soyqırımının 25-ci ildönümünə həsr olunmuş anım mərasimi və elmi-praktik konfrans keçirilmişdir.**

Universitetin akt zalında keçirilən tədbirdə Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad olunmuşdur.

BDU Qazax filialının direktoru, coğrafiya elmləri doktoru, professor Vüsət Əfəndiyev konfransı giriş sözü ilə açaraq Azərbaycanın üzləşdiyi işğal və etnik təmizləmə siyasətinin tarixi mərhələləri və bu kontekstdə ermənilərin Azərbaycana köç tarixi, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin təfərrüatları, Xocalı soyqırımı barədə tədbir iştirakçılarına geniş məlumat vermişdir.

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov konfransda çıxış edərək qeyd etmişdir ki, XX əsrdə Azərbaycan xalqına qarşı törədilmiş soyqırımlardan ən ağrılısı Xocalı faciəsidir. Xocalı soyqırımı Azərbaycan tarixinə ən dəhşətli və faciəli səhifələrdən biri kimi daxil olmuşdur. 1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə erməni-daşnak silahlı qüvvələri və keçmiş sovet 366-cı motoatıcı alayı Xocalıya divan tutdu. Bu qətliam nəticəsində 63-ü uşaq, 106-sı qadın, 70-i qoca və qarı olmaqla, 613 Xocalı sakini qətlə yetirilmiş, 8 ailə tamamilə məhv edilmiş, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirmişdir. Düşmən gülləsindən 76-sı uşaq olmaqla, 487 nəfər yaralanmışdır. 1275 nəfər əsir götürülmüşdür. Girov götürülənlərdən 150 nəfərinin, o cümlədən 68 qadın və 26 uşağın taleyi bu günədək məlum deyil. Azərbaycanın ümummilli lideri Heydər Əliyev Xocalı soyqırmının on illiyi münasibətilə Azərbaycan xalqına müraciətində qeyd etmişdir: "Bu amansız və qəddar soyqırım aktı insanlıq tarixinə ən qorxulu kütləvi terror aktlarından biri kimi daxil oldu". Həmin vaxt dünya ictimaiyyətinin diqqəti bu dəhşətli soyqırı-ma yönəldilməli və hadisəyə hüquqi-siyasi qiymət verilməli idi. Lakin o vaxtkı hakimiyyət tərəfindən bunların heç biri edilmirdi. Qanlı Yanvar hadisələri zamanı olduğu kimi, bu hadisənin də əsl mahiyyəti ümummilli lider Heydər Əliyevin Azər-baycanda ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra açıldı. Milli Məclisin 1994-cü ilin fevral ayında keçirilən iclasında Xocalı soyqırımı müzakirə edildi və hadisəyə hüquqi-siyasi qiymət verildi. Xocalı soyqırımı ilə bağlı qərar da həmin yığıncaqda qəbul edilərək fevral ayının 26-ı "Xocalı soyqırımı günü" elan olundu. Respublika Prezidenti İlham Əliyev Xocalı Soyqırımı həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması ilə bağlı belə demişdir: "Azərbaycana qarşı erməni şovinist dairələrinin XIX-XX əsrlərdə mərhələ-mərhələ həyata keçirdiyi etnik təmizləmə siyasətinin tərkib hissəsi olan Xocalı soyqırımı haqqında həqiqətlər dünya ictimaiyyətinə, xarici ölkələrin parlamentlərinə çatdırılmalı, Azərbaycan xalqının və ümumən insanlığın əleyhinə yönəlmiş bu son dərəcə ağır hərbi cinayət beynəlxaq miqyasda öz hüquqi-siyasi qiymətini almalıdır".

R.Babaşov bildirmişdir ki, belə qanlı, bəlalı günlər Qazaxdan da yan keçməmiş, 7 kəndimiz işğal olunmuşdur. Bunun nəticəsidir ki, bu gün rayonumuzda 275 şəhid ailəsi, 377 nəfər Qarabağ müharibəsi əlili, 2310 nəfər Qarabağ müharibəsi veteranı və 7902 nəfər məcburi köçkün statusuna malik vətəndaşımız var.

Aprel döyüşlərinə əsasən əminliklə deyə bilərik ki, işğal olunmuş torpaqlarımızın Prezident İlham Əliyevin uğurlu siyasəti nəticəsində layiqli sahibinə qayıdacağına və həmin torpaqlarda üçrəngli bayrağımızın dalğalanacağına az müddət qalmışdır.

Anım mərasimində "Xocalı soyqırımı" adlı film nümayiş etdirildikdən sonra tələbələr faciəyə həsr olunmuş şeirlər söyləmişlər.

Daha sonra elmi-praktik konfransda məruzələr dinlənilmişdir. Filialın fakültə dekanı, professor Hüseyn Xəlilov, kafedra müdiri, baş müəllim İradə Arıxova, kafedra müdiri, dosent Rəşid Məhərrəmov, baş müəllimlərdən Mübariz Süleymanov, Zeynəb Mustafayeva, müəllimlərdən Gülnar Nəzərova, Ülviyyə Bayramova, tələbələrdən Nicat Məmmədov və Aysel Kazımova Xocalı soyqırımına həsr olunmuş müxtəlif mövzularda məruzələrlə çıxış etmişlər.

**Elçin İSMAYIL**

# Şəhid Süleyman Süleymanov son mənzilə yola salınmışdır

**Azərbaycan Ordusunun düşmənlə təmas xəttində gedən döyüşlərdə şəhid olan hərbiçimiz - Süleymanov Süleyman Elçin oğlunun doğulduğu Qazax rayonunun Daş Salahlı kəndində dəfn mərasimi keçirilmişdir.**







Dəfn mərasimində Müdafiə Nazirliyinin əməkdaşları, Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov və Aparatın kollektivi, polkovnik, əməkdar incəsənət xadimi Abdulla Qurbani, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin nümayəndələri, rayonun hüquq-mühafizə orqanlarının əməkdaşları, idarə, müəssisə və təşkilatların əmək kollektivləri, KİV nümayəndələri, şəhidin qulluq etdiyi hərbi hissənin əsgər və zabitləri, minlərlə rayon sakini iştirak etmişdir.

Süleyman Süleymanovun anadan olduğu evdə keçirilən dəfn mərasimində çıxış edənlər qüdrətli Azərbaycan Ordusunun düşmənə hər an tutarlı zərbə vurmağa hazır olduğunu, Vətən uğrunda qurban gedən şəhidlərimizin qanının yerdə qalmayacağını, Respublika Prezidenti, Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşərək onun əmrini gözlədiklərini bildirmişlər.

Şəhid atası Elçin Süleymanov çıxış edərək övladı ilə fəxr etdiyini bildirmişdir. O, Vətən uğrunda canından keçən bütün şəhidlərimizə Allahdan rəhmət diləmişdir.

Dəfn mərasimində "Şəhidlər ölməz, Vətən bölünməz!" şüarı səsləndirilmişdir. Şəhid Süleymanov Süleyman Elçin oğlunun cənazəsi hərbi orkestrin ifasında matəm marşının sədaları altında son mənzilə yola salınmışdır.



Əsgərlərin çiyinlərində Şəhidlər Xiyabanına aparılan şəhidi yol kənarlarında toplaşan yüzlərlə insan üçrəngli Vətən bayrağı ilə qarşılamış, gül dəstələri ilə yola salmışlar.

Şəhidin tabutuna bürünmüş üçrəngli Azərbaycan Bayrağı onun atasına təqdim edilmişdir. Şəhid hərbiçimizin cənazəsi Azərbaycan Respublikasının Dövlət Himni və yaylım atəşi altında kənddəki Şəhidlər Xiyabanında torpağa tapşırılmışdır.

**Elçin İSMAYIL**

# Qadınlar böyük qüvvədir

***Qazax rayon İcra Hakimiyyətində 8 Mart-Beynəlxalq Qadınlar Günü münasibətilə rayonun ictimai-siyasi həyatında fəal iştirak edən qadınlarla görüş keçirilmişdir. Tədbirdə məktəb direktorları, müəllimlər, veteran qadınlar, bağça müdirləri, rayonun ictimai-siyasi həyatında fəallığı ilə seçilən qadınlar iştirak etmişdir.***




Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov tədbiri giriş sözü ilə açaraq bu əlamətdar gün münasibətilə bütün qadınları təbrik etmiş, onlara gələcək işlərində uğurlar arzulamışdır. Qeyd etmişdir ki, xalqımızın milli varlığını müəyyən edən mədəni-mənəvi dəyərlərimizin, adət-ənənələrimizin qorunub saxlanması və bu günədək layiqincə yaşadılmasında Azərbaycan qadınının misilsiz xidmətləri vardır. Elm və təhsil, səhiyyə və mədəniyyət, eləcə də digər sahələrdə qazanılan uğurlarda qadınlarımızın xidmətləri əvəzsizdir. Xalqımızın ümummilli lideri Heydər Əliyev qadınların cəmiyyətdə rolunun yüksəldilməsinə diqqət və qayğı ilə yanaşmışdır. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradılması, "Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" Fərmanın imzalanması bu qayğının bariz nümunəsidir. Bu ənənələrə sadiq qalan Prezident İlham Əliyev qadınların ictimai-siyasi fəallığının artırılmasına xüsusi önəm vermişdir. Azərbaycan qadını artıq cəmiyyətimizdə öz layiqli yerini tutmuşdur. Bu gün qadınlar ölkəmizdə komitə sədri, nazir müavini, rektor və digər yüksək vəzifələrdə çalışırlar. Millət vəkillərinin 20 faizə yaxınını qadınlar təşkil edir. Azərbaycan qadınının, ailəsinin qarşılaşdığı problemlərin həllində, uşaqların sağlamlığının qorunması, təhsili və tərbiyəsi sahəsində Azərbaycanın birinci vitse-prezidenti Mehriban Əliyevanın misilsiz xidmətləri vardır.



R.Babaşov rayonun ictimai-siyasi həyatında mühüm nailiyyətlərin əldə edilməsində qazaxlı qadınların da böyük əməyinin olduğunu bildirmiş, qadınların üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirməsini və cəmiyyətdə fəal mövqe tutmasını yüksək qiymətləndirmişdir.

Tədbirdə çıxış edənlər rayonda apardığı tikinti-quruculuq işlərinə, onlarla bayram münasibətilə görüş keçirtdiyinə görə rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşova bütün rayon qadınları adından öz dərin minnətdarlıqlarını bildirmişlər.

Tədbirin sonunda rayonun ictimai-siyasi həyatında fəal iştirak edən qadınlara bayram hədiyyələri və gül dəstələri təqdim edilmişdir.

**Elçin İSMAYIL**

# Şəhid ailələri üçün bayram süfrəsi açılmışdır

***Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov fəaliyyətə başladığı ilk gündən şəhidlərimizin ruhunu əziz tutaraq şəhid ailələrinə, onların doğmalarına, yaxınlarına daim diqqət və qayğı göstərmişdir. Hər bayram və əziz günlərdə olduğu kimi Novruz bayramında da şəhid ailələri unudulmamış, onlar üçün bayram süfrəsi açılmışdır.***



Qazax rayon İcra Hakimiyyəti tərəfindən şəhid ailələri üçün təşkil olunmuş bayram tədbirində şəhidlərin yaxınları, doğmaları, ata və anaları, oğul və qızları, həyat yoldaşları iştirak etmişdir.

Tədbirdə ilk öncə torpaqlarımız uğrunda canlarından keçən Vətən oğullarının əziz xatrəsi bir dəqiqəlik sükutla yad edilmişdir. Sonra Dövlət Himni səslənmişdir. Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov bayram tədbirini giriş sözü ilə açaraq şəhid ailələrini Novruz bayramı münasibətilə səmimi qəlbdən təbrik etmiş, onlara bol ruzi və bərəkət arzulamışdır. Qeyd etmişdir ki, fəaliyyətə başladığım ilk gündən demişəm ki, şəhidlərimizin ruhu mənim üçün hər zaman əzizdir. Onların ailəsi mənim öz doğma ailəmdir. Bu gün onlar bizim aramızda olmasalar da, hər zaman bizim qəlbimizdə əbədi olaraq yaşayırlar. Şəhidlərimizin adını uca tutmaq, əbədiləşdirmək, onların yaxınlarına, doğmalarına, ailə üzvlərinə diqqət və qayğı göstərmək isə bizim hər birimizin vətəndaşlıq borcumuz, ən ümdə vəzifəmizdir. Çünki onlar bu millət, bu torpaq uğrunda canlarından keçmişlər. R.Babaşov çıxışının sonunda bütün şəhidlərimizə Allahdan rəhmət diləyərək onların ailə üzvlərini bir daha bayram münasibətilə təbrik etmiş, ən xoş arzularını bildirmişdir.

Sonra şəhid ataları, anaları, bacıları, qardaşları, oğul və qızları çıxış edərək hər zaman onlara diqqət və qayğı göstərdiyinə görə, daim onların problemləri ilə yaxından maraqlandığına görə və ən əsası da bu bayram günlərində onları yaddan çıxartmayaraq bayram süfrəsi ətrafında bir yerə topladığına görə rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşova öz dərin minnətdarlıqlarını bildirmişlər. Qeyd etmişlər ki, biz təkcə bu gün deyil, hər zaman arxamızda bir güc, bir qüvvə hiss etmişik. Bizlərə həm ata, həm qardaş, həm də oğul hissini yaşatmısınız. Buna görə biz şəhid doğmaları sizə uzun ömür və cansağlığı, bundan sonrakı gələcək işlərinizdə uğurlar arzu edirik.

Sonra I Şıxlı kənd tam orta məktəbin şagirdlərinin ifasında Vətənə və şəhidlərimizə həsr olunmuş şeirlər səsləndirilmişdir. Bayram şənliyi musiqi sədaları altında davam etmişdir.

**"GÖYƏZƏN"**

# BAYRAMINIZ MÜBARƏK

## Qazax rayon İcra Hakimiyyətində Beynəlxalq Qadınlar Günü münasibətilə tədbir keçirilmişdir



**Rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov tədbiri giriş sözü ilə açaraq qadınları bayram münasibətilə təbrik etmişdir. Bildirmişdir ki, ümummilli lider Heydər Əliyevin qadın və cəmiyyət siyasətində qadına diqqət və qayğı mühüm bir istiqamət kimi göstərilmişdir.**

Həmin siyasət bu gün Ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Milli-mənəvi dəyərlərimizin, adət və ənənələrimizin keşiyində şərəflə dayanan qadınlarımız həmişə Azərbaycanın müstəqilliyi, güclü və qüdrətli dövlətə çevrilməsi yolunda böyük işlər görmüşlər. Dövlət quruculuğunun bütün sahələrində səylə çalışan və uğurlar qazanan qadınlarımız ölkəmizdə ictimai-siyasi sabitliyin qorunmasında, müstəqil dövlətçiliyimizin daha da möhkəmləndirilməsində, elmin, mədəniyyətin, ədəbiyyatın inkişaf etdirilməsində böyük xidmətlər göstərmişlər.

Tədbirdə xüsusi vurğulanmışdır ki, Azərbaycan xalqının milli-mədəni irsinin öyrənilməsində, xalqımızın dərin köklərə malik musiqisinin, ədəbiyyatının və mədəniyyətinin təbliğində Heydər Əliyev Fondunun Prezidenti, Azərbaycan Respublikasının birinci vitse-prezidenti Mehriban Əliyevanın fəaliyyətini qadınlarımız örnək kimi qəbul edirlər.

Tədbirdə çıxış edənlər qeyd etmişlər ki, biz bu gün fəxrlə bildiririk ki, qazaxlı qadınlar da həmişə öz üzərlərinə düşən vəzifələri ləyaqətlə yerinə yetirmişlər. Onlar bu gün ölkəmizdə həyata keçirilən sosial-iqtisadi siyasətin fəal müdafiəçiləri və iştirakçılarıdırlar. Rayonumuzun qadınları tarixin taleyüklü məqamlarında həmişə öz sözlərini demişlər və milli maraqlara söykənən mövqelərini nümayiş etdirmişlər.

Tədbirdə çıxış edən rayon İcra Hakimiyyəti Başçısının müavini Gulaya Həsənova onlara göstərdiyi diqqət və qayğıya görə bütün qadınlar adından İcra Başçısı Rəcəb Babaşova dərin minnətdarlığını bildirmişdir.

Tədbirdə qadınlara gül dəstələri və qiymətli hədiyyələr verilmişdir.

Sonda rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov bir daha bütün qadınları təbrik edərək onlara möhkəm cansağlığı, ailə xoşbəxtliyi və işlərində yeni-yeni uğurlar arzulamışdır.

**Nüşabə HÜSEYNOVA**

# Ərazi ilk partiya təşkilatında hesabat-seçki yığıncağı keçirilmişdir

***Yeni Azərbaycan Partiyası Qazax rayon Təşkilatı Qazax rayon İcra Hakimiyyəti ərazi ilk partiya təşkilatında hesabat-seçki yığıncağı keçirilmişdir.***

Rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov yığıncağı giriş sözü ilə açaraq iştirakçılara YAP-ın 24 il ərzində çətin və şərəfli bir yol keçməsindən danışmışdır. Qeyd etmişdir ki, partiyanın ölkəmizdə anarxiya və özbaşınalığın hökm sürdüyü bir vaxtda ümummilli lider Heydər Əliyev tərəfindən yaradılması, əslində bu təşkilatın yaradılmasının Azərbaycan cəmiyyətinin tələbi olması Azərbaycan dövlətinin ən böyük uğuru idi. Bu gün Prezident İlham Əliyev YAP-ın sədri seçildikdən sonra partiya daha da möhkəmlənmiş və güclənmişdir. Partiyanın qəbul etdiyi siyasi kurs İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bunun ən bariz nümunəsi üzvlərinin sayının gündən-günə artması, bu gün partiyanın 689 min nəfər üzvünün olmasıdır. Partiya üzvlərinin əksəriyyətini ziyalıların, qadınların və gənclərin təşkil etməsidir. "YAP bu günün, sabahın və gələcəyin partiyasıdır".

Sədr və katib seçildikdən, gündəlik təsdiq olunduqdan sonra ilk partiya təşkilatının sədri Azad Hümbətov məruzə ilə çıxış edərək partiyanın yaranması, inkişafı və gördüyü işlər barədə ətraflı məlumat vermiş, 2016-cı ildə rayonda aparılmış tikinti, quruculuq və abadlıq işlərindən danışmışdır.

Sonra çıxışlar olmuşdur. Qazax RİHB Aparatının məsul işçiləri, aparıcı məsləhətçi-psixoloq Kəmalə Cəfərova partiyanın qadın siyasəti, baş məsləhətçi Teybə Hüseynova, baş məsləhətçi Kamil Mehdiyev və aparıcı məsləhətçi Vüqar Abdullayev gənclər siyasəti, məsləhətçi Müşviq Pirverdiyev partiyanın yaranması, tarixi, məsləhətçi Vəfa Cəbiyeva və RİHB-nın köməkçisi Əmin Abıyev çıxış edərək partiyanın keçdiyi çətin və şərəfli yoldan söz açmışlar.

YAP Qazax rayon Təşkilatının sədri Həmid Pənahov YAP-ın yaranması, fəaliyyəti və gördüyü işlər barədə yığıncaq iştirakçılarına məlumat vermişdir.

Tərkibi 5 nəfərdən ibarət idarə heyəti seçilmişdir. RİHB Aparatında informasiya təminatı və təhlil sektorunun müdiri Azad Hümbətov yenidən açıq səsvermə ilə ilk partiya təşkilatının sədri, RİHB Aparatında baş məsləhətçi Adil Vəliyev isə sədrin müavini seçilmişlər.

Rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov, RİHB Aparatında baş məsləhətçi Adil Vəliyev, sektor müdiri Azad Hümbətov, məsləhətçi Vəfa Cəbiyeva və aparıcı məsləhətçi-psixoloq Kəmalə Cəfərova partiyanın IX konfransına nümayəndələr seçilmişdir.

# Tədbirlər planı hazırlanmışdır

**Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov 1 mart "Ümumdünya mülki müdafiə günü"nün keçirilməsi ilə bağlı 24 fevral 2017-ci il tarixli tədbirlər planını təsdiq etmişdir. Tədbirlər planında 1 mart 2017-ci il tarixdə rayonun idarə, müəssisə və təşkilatlarında 1 mart "Ümumdünya mülki müdafiə günü" ilə bağlı mülki müdafiənin rolu və vəzifələrini təbliğ edən tədbirlərin keçirilməsi qeyd edilmişdir.**

Əhalinin fəlakət riskinin qarşısının alınmasında xəbərdarlıq sirenalarının xüsusi rol oynadığını nəzərə alaraq sirenaların hazır vəziyyətdə saxlanması ilə bağlı tədbirlərin görülməsi, rayonun təhsil müəssisələrində birinci dərs saatı mülki müdafiənin rolu və vəzifələri barədə məlumatların tələbə və şagirdlərə çatdırılması, həmçinin ümumtəhsil müəssisələrində mülki müdafiə üzrə normativlərin yerinə yetirilməsi ilə bağlı məktəbdaxili yarışların keçirilməsinin təşkil edilməsi tövsiyə olunmuşdur.

Şəhər 2 saylı tam orta məktəbində nümunəvi mülki müdafiə gününün keçirilməsi, keçirilən tədbirin videolentə alınması və fotoşəkillərin çəkilməsinin təşkil edilməsi tapşırılmışdır. 1 mart "Ümumdünya mülki müdafiə günü" ilə əlaqədar Qazax Dövlət Rəsm Qalereyasında fövqəladə hadisələrlə bağlı rəsm müsabiqəsinin keçirilməsi də tədbirlər planında vurğulanmışdır. Rayon mərkəzi xəstəxanasının tabeliyində olan tibb müəssisələrində fövqəladə hadisələrdə tibb xidmətinin fəaliyyəti ilə bağlı tədbirlərin keçirilməsinin təşkil edilməsi qeyd olunmuşdur. Qızıl Aypara Cəmiyyəti Qazax rayon bölməsi tərəfindən şəhər 2 saylı tam orta məktəbində ilkin tibbi yardım göstərilməsi işinin təşkil edilməsi də tədbirlər planında göstərilmişdir.

1 mart "Ümumdünya mülki müdafiə günü" ilə bağlı keçirilən tədbirlərin "Göyəzən" rayon qəzetində işıqlandırılması tədbirlər planında öz əksini tapmışdır.

Rayonda keçirilən tədbirlər barəsində yekun məlumatın Gəncə Regional Fövqəladə Hallar və Mülki Müdafiə şöbəsinə göndərilməsi qeyd olunmuşdur.

Tədbirlər planında qeyd olunan bütün məsələlərlə bağlı aidiyyatı idarə və müəssisələrin rəhbərlərinə tapşırıqlar verilmişdir.

XXX XXX XXX

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov "Qazax rayonu ərazisində yanğın təhlükəsizliyi sahəsində mövcud problemlərin aradan qaldırılması üzrə" 7 mart 2017-ci il tarixli tədbirlər planını təsdiq etmişdir. Tədbirlər planında "Yanğın Təhlükəsizliyi Qaydaları"nın tələblərindən irəli gələn vəzifələrin yerinə yetirilməsini təmin etmək qeyd edilmişdir.

Tədbirlər planına əsasən idarə, müəssisə və təşkilatlara yanğın təhlükəsizliyi tədbirlərinin işlənib hazırlanması tapşırılmışdır. Bina və otaqların görünən yerlərində yanğın təhlükəsizliyi xidmətinin çağırış telefon nömrələrini bildirən lövhənin asılması da tədbirlər planında göstərilmişdir. Normalara uyğun olaraq bina və tikililərin ilkin yanğınsöndürmə vasitələri ilə təmin edilməsi, yanğından müdafiə sistemlərini və vasitələrini, o cümlədən ilkin yanğınsöndürmə vasitələrinin saz vəziyyətdə saxlanılması, onların başqa məqsədlər üçün istifadə olunmasına yol verilməməsi tədbirlər planında vurğulanmışdır.

Tədbirlər planında hər bir müəssisənin yanğın təhlükəsizliyinin təmin edilməsi üçün əmrlə (təlimat) yanğına qarşı rejim müəyyənləşdirilməsi qeyd edilmiş, yanğın xüsusiyyətləri öyrənilməmiş material və maddələrin digər material və maddələrlə birlikdə saxlanılmasına yol verilməməsi tövsiyə olunmuşdur.

Yanğın zamanı insanların köçürülməsi üçün "köçürmə" planlarının işlənib hazırlanması və görünən yerlərdən asılması, işçilərinin sayı 50 nəfərdən çox olan obyektlərdə obyekt rəhbəri tərəfindən köçürmə planına əlavə olaraq "İnsanların yanğın yerindən köçürmə tədbirləri"nin hazırlanması da tədbirlər planında öz əksini tapmışdır. Binada, onun mərtəbələrində olan insanları yanğın hadisəsi haqqında xəbərdar etmək üçün xəbərverici qurğuların quraşdırılması, binalara, yanğınların söndürülməsi üçün istifadə edilən su mənbələrinə, stasionar yanğın nərdivanlarına və yanğın inventarları saxlanılan yerlərə sərbəst yanaşmaq üçün gedən yolların, keçidlərin, girişlərin tutulmasına yol verilməməsi barədə tapşırıqlar verilmişdir.

Yaşayış məntəqələrinin və müəssisələrin ərazilərində yanar tullantıların yığılmasına və yandırılmasına yol verilməməsi, çardaqlardan keçən bütün tüstü borularının təmizlənməsi və divarların ağardılması da planda göstərilmişdir. Elektrik qurğularının müvafiq qaydalara və digər normativ sənədlərə uyğun olaraq quraşdırılıb istismar edilməsi, nasaz elektrik qızdırıcı qurğu və cihazlarının istismarına yol verilməməsi, elektrik ötürücü xətlərini və xarici (çöl) elektrik naqillərini yanar dam örtükləri və yanar materiallar olan yerlərin üzəri ilə çəkilməsinə yol verilməməsi tədbirlər planında öz əksini tapmışdır.

Həmçinin tədbirlər planında yanğın təhlükəsizliyinə cavabdeh şəxslərin müəssisə rəhbəri tərəfindən xüsusi əmrlə təyin edilməsi, yanğın təhlükəsizliyi standartlarının tələblərinə və texniki şərtlərə cavab verməyən istilik sobalarının quraşdırılmasına və istismarına yol verilməməsi, yanğın təhlükəsizliyi normalarının, standartlarının və qaydalarının tələblərinə ciddi riayət olunmasına nəzarətin artırılması qeyd olunmuşdur.

Tədbirlər planında qeyd olunan bütün məsələlərlə bağlı aidiyyatı idarə və müəssisələrin rəhbərlərinə tapşırıqlar verilmişdir.

**"GÖYƏZƏN"**

# “Sizin harda probleminiz varsa, mən ordayam”

## Rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşovun sərhəd kəndlərində sakinlərlə keçirdiyi görüşlərdə bu fikir səslənmişdir



**Xalqın arasında olmaq, əhalini narahat edən problemləri onların dilindən eşitmək məqsədilə rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşovun kəndlərdə, xüsusən də sərhəd kəndlərində keçirdiyi görüşlər artıq ənənə şəklini almışdır. İcra başçısı mütəmadi olaraq kəndlərə gedir, mövcud çatışmazlıqları yerindəcə öyrənərək lazımi tapşırıqlar verir.**

Rayon rəhbərliyinin Qazaxın sərhəd kəndləri olan Quşçu Ayrım, Məzəm, Fərəhli, Bala Cəfərli və Cəfərli kəndlərində keçirdiyi görüşlər buna əyani sübutdur.

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov sərhəd kəndlərində keçirdiyi görüşlərdə çıxış edərək kənd sakinlərini salamlamış, qarşıdan gələn Novruz bayramı münasibətilə onları təbrik etmişdir. Xüsusilə tədbirə toplaşan qadınları 8 Mart - Beynəlxalq Qadınlar Bayramı münasibətilə səmimi qəlbdən təbrik edərək onlara ən xoş arzularını bildirmişdir. Qeyd etmişdir ki, mən fəaliyyətə başladığım ilk gündən kəndlərdə oluram. İstəyirəm ki, kənd sakinlərini narahat edən məsələləri onların öz dilindən eşidim. Sizin harda probleminiz var, mən ordayam, sizin yanınızdayam. Sərhəd kəndlərində yaşayan insanlara olan diqqət və qayğım, onları narahat edən məsələlərə yaxından münasibət bildirməyim isə mənim iş planımın ən əsas hissəsini təşkil edir. Çünki sizlər düşmənlə bir addımlıqda yaşayırsınız. Hər an düşmən gülləsi ilə üz-üzə dayanırsınız. Bizim üzərimizə düşən isə odur ki, sizlərlə bir yerdə olaq, sizi narahat edən problemləri həll edək.



Quşçu Ayrım kənd sakinlərindən Məmməd Alıyev, Lətif Dünyamalıyev, Nuru Hacıyev, ağsaqqallardan Aslan Pirvəliyev, Süleyman Süleymanov, Fərəhli kənd sakinlərindən Əsmər Məmmədova, Natella Mollayeva, Alı Həsənov, Bala Cəfərli kənd ağsaqqallarından Ələkbər Heydərov, Sabir Vəliyev, Alı Alıyev, Mehman Nəbiyev və başqaları söz alaraq rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşova onlarla mütəmadi olaraq görüş keçirtdiyinə görə minnətdarlıqlarını bildirmişlər. Qeyd etmişlər ki, bu bayram ərəfəsində bizlərlə görüşməyiniz, bizi təbrik etmək üçün görüşə gəlməyiniz əsl bayram hədiyyəsidir. Hər zaman sərhəd kəndlərində olmağınız biz sakinlərə düşmənlə bir addımlıqda yaşamağa güc, qüvvət verir. Biz çox sevinirik ki, siz daim bizimlə maraqlanır, bizim problemlərimizin həlli üçün əlinizdən gələni əsirgəmirsiniz. Buna görə də biz kənd sakinləri sizə dərin minnətdarlığımızı bildirir və bundan sonrakı fəaliyyətinizdə sizə uğurlar arzu edirik.



Rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov kəndlərdə keçirdiyi görüşlərdə kənd sakinləri ilə mütəmadi olaraq görüşəcəyini deyərək bildirmişdir ki, mən sizinlə bir yerdəyəm.

**Elçin İSMAYIL**

# Rayonumzda məcburi köçkünlərin məskunlaşdığı qəsəbədə körpələr evi-uşaq bağçasının açılışı olmuşdur

***“Regionların inkişafına dair Dövlət Proqramı”na uyğun olaraq rayonumuzda tikinti-quruculuq işləri getdikcə daha geniş vüsət alır. Bütün sahələrdə həyata keçirilən bu yenidənqurma işləri rayon mərkəzinin, eləcə də kəndlərin yeni görkəm almasına, abadlaşmasına, əhalinin sosial rifah halının yaxşılaşmasına səbəb olur. Görülən bu genişmiqyaslı, sürətli işlərin nəticəsidir ki, Qazax aydan-aya, ildən-ilə öz görkəmini sözün yaxşı mənasında dəyişir, rayonumuz daha da gözəl və yaraşıqlı olur.***

Rayonumuzda məktəb tikintisi ilə yanaşı böyüməkdə olan körpələrə də diqqət və qayğı göstərilir, onların daha yaxşı şəraitdə tərbiyə və təhsil almaları ön plana çəkilir.

Qazaxbəyli kəndində məcburi köçkünlər üçün salınmış yeni qəsəbədə açılışı olan körpələr evi-uşaq bağçası bunun ən bariz nümunəsidir.

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov Aşağı Əskipara kənd körpələr evi-uşaq bağçasının açılışında iştirak etmək üçün Qazaxbəyli kəndində məcburi köçkünlər üçün salınmış yeni qəsəbəyə gəlmişdir. Açılış mərasimində çıxış edən R.Babaşov qeyd etmişdir ki, bu gün açılışını etdiyimiz körpələr evi-uşaq bağçası sizlər üçün ən böyük hədiyyədir. Burada körpələrin yüksək səviyyədə tərbiyə almaları üçün hər cür şərait yaradılmışdır. İnanıram ki, bu bağçaya qədəm qoyan uşaqlar lazımi qayğı və diqqətlə təmin olunacaq, ölkəmizin ən xoşbəxt balaları kimi böyüyəcəklər. Onu da qeyd edim ki, bu bağçada çalışan kollektiv qəsəbə sakinlərinin içərisindən seçilmişdir.

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov çıxışının sonunda qəsəbə sakinlərini, valideynləri, bağçanın kollektivini bir daha səmimi qəlbdən təbrik edərək ən xoş arzularını bildirmişdir.

Sonra mərasimdə iştirak edən valideynlər, müəllimlər, qəsəbə sakinləri çıxış edərək qeyd etmişlər ki, 25 ildən sonra açılışını etdiyimiz bu bağça bizim balalarımıza verilən ən böyük hədiyyədir. Çıxış edənlər yeni bağçanın açılışına və onlara göstərdiyi diqqət və qayğıya görə Respublika Prezidenti İlham Əliyevə, rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşova qəsəbə sakinləri adından öz dərin minnətdarlıqlarını bildirmişlər.

Yeni körpələr evi-uşaq bağçasında yaradılan şərait müasir standartlara tam cavab verir. Sayca 3 olan qrup otaqlarında uşaqların normal şəraitdə təlim-tərbiyə almaları üçün bütün imkanlar yaradılmışdır. 55 yerlik uşaq bağçasında hər bir otaq bütün avadanlıqlarla təmin olunmuşdur. Dəhlizə salınmış xalılar, otaqlarda olan çarpayı, stol və stullar öz səliqə-sahmanı ilə göz oxşayır. Üzəri nağıl qəhrəmanlarının şəkilləri ilə bəzədilmiş şkaflar otaqlara xüsusi bir gözəllik verir. Otaqlarda olan oyuncaqlar isə uşaqların maraq dünyasını zənginləşdirir. Elə bir uşaq yoxdur ki, mahnıya, musiqiyə meyl göstərməsin. Fortopiano otağında uşaqlar Dövlət Himnimizi, vətənpərvərlik ruhunda olan musiqilərimizi öyrənirlər.

Uşaqların sağlam və təmiz qidalarla qidalanması üçün səliqəli mətbəxin olması vacib şərtlərdən biridir. Odur ki, bağçada müasir avadanlıqlarla təchiz olunmuş mətbəx, uşaqların rahat şəkildə nahar etmələri üçün geniş və işıqlı yeməkxana da vardır. Həmçinin bağçada müdir otağı, texniki işçilər otağı, uşaqların sağlamlığına nəzarət etmək üçün ayrıca tibb bacısı otağı da ayrılmışdır. Bağça binasının üstün cəhətlərindən biri də burada istilik sisteminin olmasıdır. Bu da uşaqların normal şəraitdə təlim-tərbiyə almalarına imkan yaratmışdır.

Hal-hazırda bağçada 3 qrupda 55 uşaq təlim-tərbiyə alır. Yeni bağçada Barxudarlı, Bağanıs Ayrım, Aşağı Əskipara, Yuxarı Əskipara, Sofulu və Xeyrımlı kəndlərindən olan məcburi köçkün uşaqları tərbiyə alırlar. Onların təlim-tərbiyəsi ilə 6 nəfər tərbiyəçi-müəllim məşğul olur.

**Elçin İSMAYIL**

***Qazax rayonunda bütün sahələrlə yanaşı idmana və idmançılara da böyük diqqət və qayğı göstərilir. Bütün növlər üzrə idmanla məşğul olan gənclərə yüksək şərait yaradılır, onların idmançı kimi yetişməsi üçün lazımi tədbirlər həyata keçirilir. Bunun nəticəsidir ki, təkcə 2016-cı ildə qazaxlı idmançılar müxtəlif növlər üzrə diqqətəlayiq nəticələr əldə edib rayonun və ölkəmizin adını yüksəklərə qaldırmışlar.***

# Qazax güləş məktəbinin beşiyi



Qazax rayonu idman sahəsində həmişə öz güləşçiləri ilə tanınmışdır. Hələ sovet dönəmində Sarı və Kamal Əhmədov qardaşları, Ramiz Tağıyev və onlarla belə adlı-sanlı güləşçilər nəinki respublikamızda, eləcə də Avropada və dünyada qazandıqları qələbələrlə öz adlarını idman tarixinə yazdırmışlar. Azərbaycan müstəqillik əldə etdikdən sonra da Qazaxda güləşə olan maraq azalmamış, əksinə daha da artaraq onlarla güləşçi respublika, Avropa və dünya çempionatlarında, birinciliklərdə qalib gəlib, qazanılmış ənənəni davam etdirmişdir.



Əldə olunan qələbələrin, qazanılan yüksək nəticələrin bir möhkəm təməli, sağlam bir bünövrəsi var. Bu da SSRİ idman ustası, SSRİ-nin Bədən Tərbiyəsi və İdman Əlaçısı, respublika dərəcəli hakim, Azərbaycanın Bədən Tərbiyəsi və İdman Əlaçısı, respublikanın ali kateqoriyalı məşqçi-müəllimi, Azərbaycanın Fəxri Bədən Tərbiyəsi və İdman İşçisi, respublikanın əməkdar məşqçisi, Azərbaycanın Bədən tərbiyəsi və İdman Xadimi Ramiz Tağıyevin yaratdığı güləş məktəbidir. Ona görə də Qazaxda güləşdən söz düşəndə hamı bir nəfər kimi rayon təhsil şöbəsinin nəzdində fəaliyyət göstərən Uşaq Gənclər İdman Məktəbinin Məhəmmədəli Qazaxlı adına güləş zalının adını çəkir. Bu da təsadüfi deyil. Məhz güləş sahəsində qazanılan bütün qələbələrin əsasında, mayasında bu məktəbin məşqçilərinin əvəzsiz zəhməti dayanır.



Saysız-hesabsız tanınmış güləşçilər yetirməsinə baxmayaraq bu adlı-sanlı güləş zalı təmir olunmadığı üçün son illər yarasız bir hala düşmüşdü. Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov bunu nəzərə alaraq güləş zalının təmir olunması üçün göstəriş verəndən sonra burada işlərə başlanıldı. Qısa müddətdə həmin bina əsaslı şəkildə təmir olunaraq yüksək səviyyəyə gətirildi.

Məhəmmədəli Qazaxlı adına güləş zalının əsaslı təmirdən sonra açılışı olmuşdur. Açılış mərasimində Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov giriş sözü ilə çıxış edərək bildirmişdir ki, Azərbaycanda Bədən Tərbiyəsi və İdmanın inkişafı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. 1995-ci il martın 5-də ulu öndər Bakı İdman Sarayında dünya və Avropa çempionatlarının qalibləri və mükafatçıları ilə görüşmüş, İdman Fondunu təsis etmiş, bədən tərbiyəsi və idmanın inkişafında yeni strategiyanın təməlini qoymuşdur. Ölkə Prezidenti İlham Əliyev 1997-ci ildə Azərbaycan Milli Olimpiya Komitəsinə rəhbər seçilməsindən sonra ölkəmizdə idmana diqqət daha da artırılmışdır. Bu gün Azərbaycanın dünyanın idman mərkəzlərindən birinə çevrildiyini böyük fəxrlə söyləmək olar. İndi nəinki Bakıda, demək olar ki, ölkəmizin bütün bölgələrində müasir Olimpiya İdman kompleksləri fəaliyyət göstərir. Son illərdə Azərbaycanda 50-dək yeni Olimpiya İdman kompleksi, bir sıra müxtəlif idman növləri üçün möhtəşəm arenalar istifadəyə verilmişdir.

Ölkəmizdə idmana göstərilən dövlət qayğısı getdikcə daha da artır. Əsaslı şəkildə təmirdən sonra açılışına toplaşdığımız M.Qazaxlı adına güləş zalı dediklərimizə əyani sübutdur. Mən rayona icra başçısı təyin olunduqdan az sonra idman zalı ilə yaxından tanış olmuşdum. Binanın çox acınacaqlı vəziyyətini görüb əsaslı təmir işlərinə başlanılması barədə tapşırıqlarımı vermişdim. İdman zalı sizin də gördüyünüz kimi, həqiqətən yüksək səviyyədə təmir olunmuşdur. Binanın iç hissəsində 650 kv.m sahə suvanaraq rənglənmiş, 105 kv.m döşəmə yonularaq laklanmış, 7,5 kv.m hamam tam yenidən qurulmuş, 25 kv.m metlax döşənmiş, binanın giriş qapısı və 2 ədəd daxili qapı yenisi ilə əvəz olunmuş və yeni kanalizasiya və işıq sistemi qurulmuşdur. Binanın 380 kv.m fasad hissəsi rənglənmiş, giriş pilləkanına yeni üzlük və binanın həyətinə 100 kv.m tamet döşənmişdir.

Tədbirdə Milli Məclisin deputatları Kamran Nəbizadə, Ülviyyə Ağayeva, sərbəst güləş üzrə Azərbaycan yığma komandasının baş məşqçisi Firdovsi Umudov, Azərbaycan Respublikası Prezidentinin Fərdi Təqaüdçüsü Kamal Əhmədov və Azərbaycan Respublikasının Əməkdar Bədən Tərbiyəsi və İdman Xadimi Ramiz Tağıyev çıxış edərək əsaslı təmirdən sonra güləş zalının açılışı münasibətilə idmançıları təbrik etmiş, onlara idman sahəsində yeni-yeni uğurlar arzulamışlar. İdmançılara göstərilən bu diqqət və qayğıya görə ölkə başçısı İlham Əliyevə, Rəcəb Babaşova rayon idmançıları adından dərin minnətdarlıqlarını bildirmişlər.

Tədbirin sonunda Azərbaycanda idmanın inkişafındakı xüsusi xidmətlərinə görə Firdovsi Umudov, Ramiz Tağıyev, Kamal və Sarı Əhmədov qardaşları təltif olunmuşlar. Sərbəst güləş üzrə Azərbaycan yığma komandasının baş məşqçisi Firdovsi Umudova üzərində portreti təsvir olunmuş xalça hədiyyə edilmişdir.

Sonda qonaqların və rayon idman ictimaiyyəti nümayəndələrinin iştirakı ilə güləş zalına baxış keçirilmişdir.

Onu da qeyd edim ki, bu güləş məktəbindən neçə-neçə adlı-sanlı idmançılar yetişmişdir. Dəfələrlə respublika çempionu, beynəlxalq turnirlərin qalibi, avropa və dünya çempionatlarının mükafatçısı, dünya kubokunun sahibi olmuş, FİLA-nın Qızıl medalına layiq görülmüş, 2012-ci ildə dünyanın 1 nömrəli məşqçisi seçilmiş, “Şöhrət” ordeni və “Tərəqqi” medalı ilə təltif edilmiş, sərbəst güləş üzrə Azərbaycan yığma komandasının baş məşqçisi Firdovsi Umudov, avropa çempionatında 2-ci yeri tutmuş Rəhim Namazov, dünya kubokunun sahibi Xəqan Süleymanov, gənclər arasında dünya çempionu, dünya kubokunun 3-cü mükafatçısı Mahir Əmiraslanov, yeniyetmələr və gənclər arasında 4 dəfə Avropa və dünya birinciliklərinin gümüş və bürünc mükafatçısı Elcan Usublu, dünya birinciliyinin bürünc mükafatçısı Seymur Hüseynov, Avropa birinciliyinin gümüş və bürünc mükafatçısı Zahid Mirzəyev, yeniyetmələr arasında Avropa və dünya birinciliklərinin bürünc mükafatçısı Məmmədhüseyn Həsənov, yeniyetmələr arasında Avropa birinciliyinin bürünc mükafatçısı İntiqam Vəliyev, Avropa birinciliyinin bürünc mükafatçısı Faiq Babanlı və onlarla respublika çempionları bu məktəbin yetirmələridir. Ümumiyyətlə, bu məktəb 100-dən çox SSRİ və Azərbaycanın idman ustası, 500-dən çox ustalığa namizəd və 1-ci dərəcəli idmançı, 150 nəfərə yaxın ümumittifaq və beynəlxalq turnirlərin qalibləri və mükafatçılarını yetirmişdir.

**Elçin İSMAYIL**

# İdman ölkəsinin idmançıları

**Qazaxda rayon rəhbərliyinin iştirakı ilə 5 Mart Bədən Tərbiyəsi və İdman Günü münasibətilə tədbir keçirilmişdir. Əvvəlcə ulu öndər Heydər Əliyevin xatirəsi anılmış və abidəsi önünə gül-çiçək dəstələri qoyulmuşdur.**

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov Gənclər Mərkəzində keçirilən tədbirdə çıxış edərək idmançıları 5 Mart Bədən Tərbiyəsi və İdman Günü münasibətilə təbrik etmiş, ölkəmizdə dövlət səviyyəsində idmana göstərilən diqqət və qayğıdan söz açmışdır. Qeyd etmişdir ki, respublikamızda bədən tərbiyəsi və idmanın inkişafı ulu öndərin adı ilə bağlıdır. Ümummili lider Heydər Əliyev həmişə idmançılara diqqətlə, qayğıyla yanaşmışdır. Ulu öndər 1995-ci il martın 5-də Bakı İdman Sarayında dünya və Avropa çempionatlarının qalibləri və mükafatçıları ilə görüşmüş, İdman Fondunu təsis etmiş, bədən tərbiyəsi və idmanın inkişafında yeni strategiyanın təməlini qoymuşdur. Respublikamızda bu əlamətdar gün Prezident İlham Əliyevin “Bədən Tərbiyəsi və İdman Günü”nün təsis edilməsi haqqında 2005-ci il 4 mart tarixli Sərəncamına əsasən qeyd edilir. Ölkə başçısının 1997-ci ildə Azərbaycan Milli Olimpiya Komitəsinə rəhbər seçilməsindən sonra ölkəmizdə idmana və bədən tərbiyəsinə diqqət daha da artırılmışdır. Bu gün Azərbaycanın dünyanın idman mərkəzlərindən birinə çevrildiyini böyük fəxrlə söyləmək olar.



Prezident İlham Əliyev Qazaxda idmana və idmançılara hər zaman diqqət göstərmişdir. Belə ki, ölkə başçısının müvafiq Sərəncamı ilə 2007-ci ildə may ayının 30-da istifadəyə verilmiş möhtəşəm Qazax Olimpiya İdman Kompleksi Qazax idmanının inkişafına xüsusi təkan verərək yeni gənc idmançıların yetişməsinə səbəb olmuşdur. 2006-cı ildə Prezident İlham Əliyevin Sərəncamı ilə Azərbaycan idmanının inkişafında böyük xidmətləri olmuş Qazax rayonunda güləş idman növünün yaradıcısı Kamal Əhmədova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilmişdir. 2008-ci ildə Ramiz Tağıyevə, 2010-cu ildə Sarı Əhmədova Azərbaycan Respublikasının Əməkdar Bədən Tərbiyəsi və İdman xadimi fəxri adları verilmişdir. Mərhum Rafiq Həsənova isə 2008-ci ildə Azərbaycan Respblikasının Əməkdar Bədən Tərbiyə və İdman Xadimi adı, 2014-cü ildə isə Azərbaycan Respublikasının fərdi təqaüdü verilmişdir. Sevindirici haldır ki, sərbəst güləş üzrə Azərbaycan komandası Rio Olimpiada oyunlarında həmyerlimiz Firdovsi Umudovun rəhbərliyi altında böyük dövlətləri geridə qoyaraq komanda hesabında birinci yerə çıxmışdır. “Şöhrət” ordenli, Avropa və Dünya çempionatları və kuboku yarışlarının qalibi və mükafatçısı Firdovsi Umudov bu uğura görə Prezident İlham Əliyev tərəfindən “Tərəqqi” medalı ilə təltif olunmuşdur. 2010-cu ildə “Dünyanın ən gclü güləşçisi” olmuş həmyerlimiz Həsən Əliyev yunan-roma güləşi üzrə ötən il dünya çempionatının bürünc mükafatçısı, 2016-cı ildə qol güləşi üzrə Avropa dünya çempionu olmuş Ramazan Rüstəmov isə respublika üzrə 10 ən güclü idmançıdan biri olmuşdur. Poverliftinq üzrə Azərbaycan Respublikasının Əməkdar İdman Ustası İsrafil Məmmədov dəfələrlə Avropa və dünya çempionatları kubokunun qalibi adını qazanmışdır. İdmanın sərbəst və yunan-roma, qol güləşi, ağır atletika, futbol, karate, ciu-citsu, boks, kik-boksinq növlərində rayonumuzun idmançıları respublikamızda və respublikamızdan kənarda yüksək idman nailiyyətləri qazanmışlar. Təkcə 2016-cı ildə Qazax idmançıları respublika səviyyəli yarışlardan 68 medal, beynəlxalq yarışlardan isə 23 medal qazanmışlar.



Qazax rayonunun idman tarixində ən mühüm hadisələrdən biri 2016-ci il iyul ayının 24-ü Azərbaycan Kik-Boksinq Federasiyasının və Qazax rayon İcra Hakimiyyətinin təşkilatçılığı, Gənclər və İdman Nazirliyinin dəstəyi ilə Qazax rayon Olimpiya İdman Kompleksində ulu öndər Heydər Əliyevin əziz xatirəsinə həsr olunmuş Azərbaycan və gürcü kik-boksinqçiləri arasında beynəlxalq turnirin keçirilməsi olmuşdur.

Gənclər və İdman İdarəsinin rəisi Vüqar Nəbiyev tədbirdə çıxış edərək tədbir iştirakçılarını təbrik etmiş, 2016-cı ildə idmançılarımızın qazandıqları uğurlardan söz açmışdır. Rayonumuzda idmana və idmançılara göstərdiyi diqqət və qayğıya görə rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşova idmançılar adından öz dərin minnətdarlığını bildirmişdir.

Sərbəst güləş üzrə SSRİ idman ustası, əməkdar məşqçi, Respublika Prezidentinin Fərdi Təqaüdçüsü Kamal Əhmədov, sərbəst güləş üzrə SSRİ idman ustası, əməkdar məşqçi, Respublikanın Əməkdar Bədən Tərbiyəsi və İdman Xadimi Ramiz Tağıyev, yunan-roma güləşi üzrə əməkdar məşqçi Tariyel Nəsibov, karate üzrə əməkdar məşqçi, rayon təhsil şöbəsinin nəzdindəki UGİM-nin direktoru Şücayət Nağdalıyev, qol güləşi üzrə əməkdar məşqçi, Respublikanın Fəxri Bədən Tərbiyəsi və İdman İşçisi, “Biomen” peşəkar idman klubunun sədri Azər Əliyev, Fəxri Bədən Tərbiyəsi və İdman İşçisi, əməkdar müəllim Bəsti Ələkbərova, qol güləşi üzrə Avropa və dünya çempionu, gənclərdən ibarət Azərbaycan yığma komandasının üzvü Ramazan Rüstəmov çıxış edərək idmançıların qazandıqları uğurlardan, ölkəmizdə, eləcə də Qazaxda idmana və idmançılara göstərilən diqqət və qayğıdan danışmışlar.

Tədbirin sonunda idmanın müxtəlif növlərində nailiyyətlər əldə etmiş idmançılar, veteran idmançılar və məşqçi-müəllimlər təltif olunmuşlar.

**Xuraman ƏZİMOVA**

# Rayonumuzda Novruz yarmarkası keçirilmişdir



**Novruz bayramı ərəfəsində rayon əhalisinin kənd təsərrüfatı və ərzaq məhsulları ilə təminatının yaxşılaşdırılması məqsədilə Qazax şəhərindəki Təzə Bazarda (Çinardibi deyilən ərazidə) Novruz yarmarkası keçirilmişdir.**

Rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov Novruz yarmarkasında iştirak etmiş, burada yaradılan şəraitlə yaxından tanış olmuş, qiymətlərlə, əhaliyə göstərilən ticarət xidmətləri ilə maraqlanmışdır.

Yarmarkada müxtəlif adda kənd təsərrüfatı məhsullarının satışı təşkil olunmuşdur. Ət və süd məhsulları, meyvə-tərəvəz, müxtəlif göyərtilər, bir sözlə, bayram süfrəsi üçün nə lazımdırsa, hamısı bazar qiymətindən aşağı qiymətə satılmışdır. Yarmarka fəaliyyətə başladığı ilk andan nəinki rayonumuzun əhalisi, hətta qonşu rayonların sakinləri də böyük maraq göstərmişdir.

Onu da qeyd edim ki, təzə bazarda istehsalçıların məhsullarının daşınması, yerləşdirilməsi üçün lazım olan hər cür şərait yaradılmışdır. Satışa çıxarılan məhsulların keyfiyyətinə və çeşidlərinə diqqət yetirilmişdir.

Rayon əhalisi, şəhərimizin qonaqları və bütün arzu edənlər yarmarkanın imkanlarından faydalanmışdır. Bayram yarmarkası 3 gün - 15-16-17 mart tarixlərində təşkil olunmuşdur.

**Nüşabə HÜSEYNOVA**



# Hər kəs fövqəladə hallara hazır olmalıdır



***Qazax şəhər 2 saylı tam orta məktəbdə 1 mart "Ümumdünya mülki müdafiə günü" ilə əlaqədar tədbir keçirilmişdir. Tədbirdə məktəbin, rayon mərkəzi xəstəxanasının, baytarlıq idarəsinin, Qızıl Aypara Cəmiyyəti Qazax rayon bölməsinin, rayon gigiyena və epidemiologiya mərkəzinin, Qazax Dövlət Rəsm Qalereyasının əməkdaşları və KİV nümayəndələri iştirak etmişdir.***

Məktəbin direktoru Murğuz Mustafayev giriş sözü ilə çıxış edərək keçirilən tədbirin məqsəd və əhəmiyyətindən danışmışdır.

Sonra məktəbin təlim-tərbiyə işləri üzrə direktor müavini Rəqsanə Xanbabayeva "Əhalinin və ərazilərin fövqəladə hadisələrdən mühafizəsi sahəsində dövlətin rolu" mövzusunda məruzə ilə çıxış edərək bu sahədə həyata keçirilən məqsədyönlü tədbirlərdən söz açmışdır.

Rayon Təhsil şöbəsinin müdir müavini Zakir Nəsibov, QAC Qazax rayon bölməsinin sədri Qurban Qurbanlı və Qazax RİHB Aparatında sektor müdiri Azad Hümbətov çıxış edərək 1 mart "Ümumdünya mülki müdafiə günü"nün rayonumuzda da yüksək səviyyədə qeyd olunmasından və bu sahədə həyata keçirilən maarifləndirmə işlərindən danışmışlar.

Tədbirdə həmçinin ilk açıq dərs dinlənilmiş, məktəblilər Mülki Müdafiə xidmətlərinin fəaliyyəti ilə tanış olmuşlar. Bundan əlavə "Fövqəladə hadisələr uşaqların gözü ilə" rəsm işlərinə baxış keçirilmişdir.

Sonra məktəblilər MM normalarını yerinə yetirmiş, məktəb ərazisində şərti olaraq yaradılmış yanğın ocaqlarının söndürülməsi, hadisə nəticəsində xəsarət almış məktəblilərə ilk tibbi yardımın göstərilməsi və onların xilasedicilərin köməyi ilə hadisə yerindən necə çıxarılmasını nümayiş etdirmişlər.

Tədbirdə QAC Qazax rayon bölməsinin könüllülərinin məktəblilərə xilasetmə işlərində necə kömək edilməsi və ilk tibbi yardımın təşkil olunması göstərilmişdir.

**Xuraman ƏZİMOVA**

# Xalqa xidmətin yüksək təntənəsi

***Ulu peyğəmbərimiz demişdir ki, bu dünyada elə yaşa, elə çalış ki, sanki bu dünyanı heç vaxt tərk etməyəcəksənmiş kimi. Sonra əlavə edir ki, həm də elə yaşa, elə çalış ki, bu dünyanın heç kim üçün əbədi olmadığını dərk edirsənmiş kimi. Bu böyük kəlamın əvvəlində peyğəmbərimiz demək istəmişdir ki, həyatda varkən elə çalış ki, ailən, ətrafın və bütövlükdə yaşadığın cəmiyyət səndən böyük fayda görsün, əməllərin xeyirli, xoşagələn olsun, hamı səndən razı qalsın, adın tarixə yazılsın. Sonda bu fikri önə çəkir: bil ki, bu fani dünyada heç kim əbədi deyil, ona görə adil ol, ədaləti tapdalama, həqiqətin ağzına daş basma, yoxsa arxanda səndən bir nişanə qalmaz.***

19 may 2016-cı ildə Prezident İlham Əliyevin sərəncamı ilə Rəcəb Abas oğlu Babaşovun Qazax rayon İcra Hakimiyyətinin başçısı təyin olunması ilə rayon camaatı uzun illər arzusunda olduğu bir insanın rayona rəhbər təyin olunduğunu ilk günlərdən hiss elədi. Yeni icra başçısının ilk addımı sadə, əliqabarlı, müəyyən problemlərlə üz-üzə qalan insanlarla görüşməsi oldu. Bu görüşlərin birində onun öz dilindən eşidilən bu sözlər ibrətamizdir: "Mən problem və çatışmamazlıqları sizin özünüzdən eşitmək üçün sizinlə görüşə gəlmişəm. Mən eşitdiyimə deyil, gördüyümə inanıram. Ona görə də bu gün sizin yanınızdayam. Düzdür problemlər var. Bunlar zaman-zaman buraxılan səhvlərin nəticəsidir. Harada problem varsa, deməli orada insanların haqqı tapdalanıb".

Bəli, doğrudan da bu görüşlərdə şəhər və kəndlərdə əhalini düşündürən, narahat edən məsələlər yerindəcə öyrənilir, gələcək çoxşaxəli fəaliyyət proqramı müəyyən edilirdi. Maraqlısı bu idi ki, hörmətli başçı bu görüşləri eyni kənddə təkrar-təkrar keçirirdi. Çünki o, yaxşı bilirdi ki, konkret bir yaşayış yerinin problemlərini bir görüşlə həll etmək mümkün deyil. Göründüyü kimi onun fəaliyyət proqramının mayasında xalqın, zəhmətkeş insanların bütün müraciətlərinə son dərəcə həssaslıqla yanaşmaq prinsipi durur. Diqqətçəkən amillərdən biri də odur ki, hörmətli icra başçısı insanların vaxtlı-vaxtsız ona müraciətlərindən də usanmır, yorulmur. O, möhtərəm prezidentimizin bir sözünü həmişə təkrar edərək deyir: "Biz hamımız xalqın xidmətçiləriyik".

R.Babaşov rayonda fəaliyyətə başladığı ilk günlərdən ən çox maraqlandığı sahələrdən biri təhsil sahəsi, məktəblərin gündəlik fəaliyyət sferası olmuşdur. O, demək olar ki, rayonda fəaliyyət göstərən bütün məktəblərin ümumi vəziyyəti ilə maraqlanmış, lazım gələn köməklikləri göstərmişdir. Rayon rəhbərliyinin təşəbbüsü və tapşırığı ilə İcra Hakimiyyətinin nəzdində yaradılmış xüsusi komissiya tez-tez məktəblərdə olur, təlim-tədris işlərinə, nizam-intizama tam nəzarət edir. Bir məsələni xüsusi vurğulamaq lazımdır ki, Qazaxın keçmişdə maarif beşiyi olduğunu və Qazax Müəllimlər Seminariyası məzunlarının bütün Azərbaycana maarif ziyası yaydığını yaxşı bilən icra başçısı bu məsələlərə daha həssaslıqla yanaşır. Məhz bunun nəticəsidir ki, Yuxarı Salahlı və Çaylı məktəbləri əsaslı təmir olunmuş, bir neçə məktəbdə cari təmir işləri aparılmışdır. Bu məktəblərdə həlli dalana dirənmiş istilik sisteminin işə düşməsinə onun böyük köməyini xüsusilə qeyd etmək lazımdır.

Qazax sərhəd rayonu olduğu və mənfur düşmənlə üz-üzə qaldığı üçün qaçqın və məcburi köçkünlərin problemləri, sərhəd kəndlərində yaşayan əhalinin qayğıları ilk günlərdən icra başçısını düşündürən, narahat edən məsələlərdən olmuşdur. Qısa vaxt ərzində bu sahədə görülmüş işlər təqdirəlayiqdir. Uzunluğu 7 km olan Cəfərli, uzunluğu 5 km olan Fərəhli kənd yollarının, həmçinin Quşçu Ayrım, Məzəm kənddaxili yollarının abadlaşdırılması bu kəndlərin əhalisi tərəfindən çox böyük minnətdarlıq hissi ilə qarşılanmışdır. Məzəm və Quşçu Ayrım kənd sakinlərinin rayon mərkəzinə təhlükəsiz gediş-gəlişini təmin etmək məqsədilə Qazax-Quşçu Ayrım avtomobil yolunun Alpout kəndi ilə Quşçu Ayrım kəndini birləşdirən hissəsində alternativ olaraq ikinci yolun çəkilişi də bu yerlərin əhalisinə olan böyük qayğının təzahürüdür. Bundan başqa sərhəd kəndlərinin düşmənlə üzbəüz müxtəlif yerlərində istinad divarlarının inşası dinc əhalinin təhlükəsiz həyat sürməsinə rayon rəhbərliyinin böyük töhfəsidir. Bala Cəfərli, Quşçu Ayrım, Ürkməzli və Dəmirçilər kəndlərində onlarla evin dam örtüyünün təzələnməsi, bir çox evlərin əsaslı təmir olunması, imkansız ailələrə yeni evlərin tikilməsi, Ürkməzli, Dəmirçilər, Aslanbəyli kəndlərinin içməli su ilə təmin olunmağı Rəcəb müəllimin xeyirxah əməllərinin ən yüksək nümunəsidir ki, həm də bütün bu quruculuq və abadlıq işləri mənfur düşmənə göz dağıdır.

Qazax rayonunda şəhidlik zirvəsinə ucalanların əziz xatirəsinə rayon rəhbərliyinin sonsuz məhəbbətinə hər zaman şahidlik edirik. R.Babaşov şəhid ailələrinə üzünü tutaraq demişdir: "Sizin övladlarınız bu gün bizim, bütün Azərbaycanın övladlarıdır. Siz ən yüksək diqqət və qayğıya layiqsiniz." Doğrudan da qısa zaman çərçivəsində rayonda onlarla şəhid ailəsinə böyük diqqət və qayğı göstərilmiş, onların hər bir problemi dərhal yerindəcə həll olunmuşdur. Rayon rəhbərliyinin "Şəhidlər ölməz, Vətən bölünməz" devizi altında qəlbləri riqqətə gətirən ən savab işlərindən biri H.Əliyev prospektinin ən diqqətçəkən yerlərində Aprel döyüşlərində şəhid olmuş kapitan Mühüd Qurban oğlu Orucovun, baş leytenant Elvin Məmməd oğlu Namazovun və əsgər Orxan Məhəmməd oğlu Əliyevin əziz xatirəsinə, memarlıq baxımdan çox incə şəkildə inşa olunmuş xatirə-bulaq kompleksləridir. Bu qədirşünaslığın davamı olaraq şəhərdəki bütün şəhid xatirə-bulaq kompleksləri yenidən qurulmuş və ya əsaslı təmir olunmuşdur. Qazax şəhərindəki Şəhidlər Xiyabanında, Yuxarı Salahlı kəndindəki şəhidlərin xatirəsinə olan abidə kompleksində və Daş Salahlı kəndindəki Şəhidlər Xiyabanında geniş şəkildə abadlıq-bərpa işləri aparılmışdır.

"Regionların sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı" ilə əlaqədar Qazaxda davamlı iş yerlərinin açılması əhalinin məşğulluğunun əsaslı şəkildə artırılmasına böyük kömək olmuşdur. İcra başçısının, bilavasitə ciddi səyi və məqsədyönlü fəaliyyəti nəticəsində rayon ərazisində 14 yeni müəssisə və təşkilat yaradılmışdır ki, bu da yeni iş yerlərinin açılmasına gətirib çıxarmışdır. Hər birinin illik istehsal gücü 50 min ton olan "Mətanət A" şirkəti tərəfindən Daş Salahlı kəndində və "Carçıoğlu" şirkəti tərəfindən Xanlıqlar kəndində 2 yeni əhəng zavodunun tikilməsi nəticəsində bu müəssisələrdə 450 nəfər insan işlə təmin olunacaqdır ki, bu da əhalinin sosial-rifah halının yaxşılaşmasına böyük töhfədir.

Ümummilli lider H.Əliyevin "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir" - devizini əsas tutan icra başçısı ərzaq təhlükəsizliyini təmin etmək məqsədilə rayon ərazisində iri ərzaq istehsalı müəssisələrinin yaradılmasına böyük diqqət vermiş, bu müəssisələrin tam gücü ilə işə düşməsi üçün şəxsən dəfələrlə həmin müəssisələrdə olmuş, sahibkarlara böyük qayğı ilə yanaşmışdır. "Birinci Şıxlı kəndi fermer təsərrüfatı", yenə Birinci Şıxlı kəndində 220 başlıq heyvandarlıq ferması, Orta Salahlı kəndində aylıq gücü 30 min baş olan quşçuluq ferması və s. bu tipli müəssisələrdəndir ki, bu müəssisələrdə də xeyli sayda işçi işlə təmin olunmuşdur.

Rayonda hərbi-vətənpərvərlik tərbiyəsinin müxtəlif forma və metodlarından da geniş istifadə olunur. Tarixi şəxsiyyətlərin, qazaxlı generalların, milli qəhrəmanların təbliği, onların abidələrinin ucaldılması, muzeylərin yaradılması, adlarının əbədiləşdirilməsi diqqətəşəyan hadisələrdir. Rayon icra başçısının çox böyük diqqət və qayğısı sayəsində rayonun girişində Bakı-Qazax magistral yolunun kənarında yaradılmış Obelisk və burada xalqımızın igid oğlu, Azərbaycanın ilk təyyarəçisi Fərrux ağa Qayıbovun şərəfinə ucaldılan Təyyarə Abidəsi öz möhtəşəmliyi ilə göz oxşayır və bu ərazidən keçən qonaqlarda, əcnəbi vətəndaşlarda böyük maraq doğurur və xoş bir təəssürat yaradır.

Qazax şəhərinin girişində möhtəşəm Bayraq Meydanın yaradılması adama xoş təsir bağışlayır və üçrəngli müqəddəs bayrağımızın Azərbaycanın Qərb qapısında vüqarla dalğalanması hər birimizin qəlbində böyük fərəh hissi doğurur.

Son zamanlar görülən işlərdən biri də Heydər Əliyev Fondunun dəstəyi və rayon rəhbərliyinin xüsusi nəzarəti altında tikilib istifadəyə verilən möhtəşəm üç mərtəbəli Qazax Tarix-Diyarşünaslıq Muzeyidir. Prezident İlham Əliyevin bu muzeyin və digər mədəni, sosial-iqtisadi obyektlərin açılışında iştirakı, həmçinin yüksək zövqlə həyata keçirilən bütün işlərə böyük dəyər verməsi rayonumuz üçün qürurverici hadisəyə çevrilmişdir.

Sonda nə demək olar? Bu gün Qazax böyük tikinti meydançasını xatırladır. Baş memarı Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov olmaqla görülən dürlü-dürlü işlər Qazaxın adına layiq şəkildə həyata keçirilir. Qazaxa xas olan bu özəllikləri yüksək qiymətləndirərək, onun çiçəklənməsi naminə böyük cəfakeşlik göstərdiyinizə görə Sizə dərin minnətdarlığımızı bildiririk. Qazax camaatına verdiyiniz böyük dəyərə və həyata keçirdiyiniz möhtəşəm quruculuq işlərinə görə, əminliklə deyə bilərik ki, Sizin Qazaxla bağlı ömür dastanınız tarixə əbədi yazılacaqdır. Öz xeyirxah əməlləri ilə ömrü tarixə yazılanlar isə Allahın ən xoşbəxt bəndələridir.

***Musa VƏLİYEV,***
***Qazax Dövlət Sosial-İqtisadi Kollecin baş müəllimi, "Vurğun dünyası" jurnalının baş redaktoru***

# Rayonumuzda Milli Teatr Günü qeyd olunmuşdur

***Milli Teatr Günü münasibətlə Qazaxdakı Mədəniyyət Mərkəzində tədbir keçirilmişdir.***

Qazax Dövlət Dram Teatrının direktoru Saqif İskəndərov giriş sözü ilə çıxış edərək Azərbaycan teatrının keçdiyi tarixi yoldan danışmış, rəhbərlik etdiyi kollektivin qazandığı uğurlardan söz açmışdır.

Qazax rayon İcra Hakimiyyəti Başçısının müavini Gulaya Həsənova çıxış edərək rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşovun salamlarını və təbriklərini çatdırmış, Qazax Dövlət Dram Teatrının fərqlənən aktyorlarına Fəxri Fərmanları təqdim etmişdir.

"arb-24" kanalının direktoru Nadir Şəfiyev tədbirdə çıxış edərək əlamətdar gün münasibətilə aktyorları və bütün teatr sevərləri təbrik etmişdir.

Çıxışlar başa çatdıqdan sonra Qazax Dövlət Dram Teatrı aktyorlarının ifasında yazıçı Əhməd Orucoğlunun "Sonuncu seriya" komediyası nümayiş olunmuşdur.

Tamaşada rolları aktyorlardan Aydın Orucov, Nazilə Məmmədova, Zəmanə Dərvişova, İlqar Hacıəliyev, Minayə İbrahimova, Arif Alməmmədov və başqaları ifa etmişlər.

Tamaşanın quruluşçu rejissoru Saqif İskəndərov, quruluşçu rəssamı isə Afiq Məmmədovdur. Tamaşanın musiqisi bəstəkar, respublikanın xalq artisti Eldar Mansurovundur.

"Sonuncu seriya" məişət komediyası tamaşaçılar tərəfindən rəğbətlə qarşılanmışdır.

**Xuraman ƏZİMOVA**

## BƏNÖVŞƏ

Əriyib dağların qarı,
Yenə gəlir yaz, bənövşə.
Boylanıb yollara sarı,
Eyləyirsən naz, bənövşə.

Yağış yağıb narın-narın,
İslanıbdı yarpaqların.
Bəzəyirsən yanaqların,
İylər səni qız, bənövşə.

Sən baharın gözəlisən,
Boynu bükük, məzəlisən.
Söylə niyə tələsirsən,
Qayıdırsan tez, bənövşə?

Öz əhdinə eylə vəfa,
Yarına çəkdirmə cəfa.
Kaş görəydim bircə dəfə,
Əyri boynun düz, bənövşə.

Qurbaninin əmanəti,
Sənsən onun şeyriyyəti.
Rəfayılın çata qüdrəti,
Qoşa sənə söz, bənövşə.

## EYLƏMƏSİN

Tapşırın sallanıb gedən gözələ,
Qoy mənə xəlvətcə göz eyləməsin.
Alovu, atəşi sönən könlümün,
Tərpədib külünü köz eyləməsin.

Göylərin yelinə olmaz qadağa,
Dağıdıb zülfünü tökübdü sağa.
Taqətim qalmayıb dözəm fərağa,
İncidib bağbanı naz eyləməsin.

Bülbüllər oxuyur gülündən ötrü,
Güllər həsrət çəkər əlindən ötrü.
Fəqir dilənçiyəm ləbindən ötrü,
Qoy kəsib payımı az eyləməsin.

Bənzətdi ləbini şəkərə, qəndə,
Yazıq Rəfayılı saldı kəməndə.
Qoymayır mən öləm, öldüyüm yerdə,
Çoxaldıb dərdimi yüz eyləməsin.

***Rəfayıl ƏHMƏDOV***

### İTMİŞDİR

**Xudiyev Kamran Qurban oğlunun adına verilmiş JN–695 saylı, kod 50100088 olan Torpağa Mülkiyyət Hüququna dair Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.**

**Süleymanov Fazil Alı oğlunun adına verilmiş JN–331A saylı, kod 50113018 olan Torpağa Mülkiyyət Hüququna dair Şəhadətnamə itdiyi üçün etibarsız sayılır.**

# NOVRUZ BAYRAMINDA YANĞIN TƏHLÜKƏSİZLİYİ QAYDALARINA CİDDİ ƏMƏL OLUNMALIDIR

***Qarşıdan xalqımızın ən əziz bayramı olan Novruz bayramı gəlir. Novruz bayramı öz adət-ənənələri ilə xalqımızın qədim mədəniyyətini özündə geniş şəkildə əks etdirən, yaşadan bir bayramdır. Hər il olduğu kimi, bu il də respublikamızın sakinləri xalqımızın qədim el bayramı olan Novruz bayramını böyük sevinc və ruh yüksəkliyi ilə qarşılayır. Novruzun gəlişi ərəfəsində hər birimizin arzusudur ki, bütün bayramlar kimi, Novruz şənlikləri də ən ülvi duyğularla yaddaşlara həkk olunsun, bayram yalnız və yalnız xoş hisslərlə xatırlansın.***

Aparılan təhlillər zamanı aydın olur ki, bayram şənliklərinin və tədbirlərinin keçirilməsi zamanı vətəndaşların adi ehtiyatsızlığı səbəbindən yanğınlar baş verir. Bir çox hallarda vətəndaşlar tərəfindən tonqal yandırılarkən onun yerinin düzgün seçilməməsi və yandırılmış tonqalın nəzarətsiz qalması nəticəsində xoşagəlməz hadisələrlə nəticələnən yanğınlar baş verir. Belə ki, pərakəndə halda tonqallar yandırılarkən yanğın təhlükəsizliyi qaydalarına ciddi əməl olunmalı, tonqallar ətrafda olan yanar materiallardan, mühəndis-texniki qurğulardan, qaz xətlərindən, elektrik və rabitə xətləri çəkilmiş dirəklərdən, binalardan, evlərdən, yardımçı tikililərdən, ot-saman tayalarından, tezalışan maye və materiallar saxlanılan yerlərdən kənarda yandırılmalıdır.

Güclü külək zamanı tonqal yandırmaq düzgün deyil. Bayram şənlikləri zamanı tonqallar tam söndürülənədək nəzarətdə saxlanılmalıdır. Unutmaq olmaz ki, zəif bir küləyin əsməsi nəticəsində tam sönməmiş tonqalın közü yanğının baş verməsi üçün mənbə ola bilər. Novruz şənliklərində yanar mayelərlə hopdurulmuş məşəllərin, qığılcım saçanların və fişənglərin azyaşlı uşaqlar tərəfindən istifadə olunmasına yol vermək olmaz. Çünki məşəllər evlərin dam örtüklərinin, həyətyanı sahələrə yığılmış yanar materialların, çəpərlərin və ot-saman tayaları yığılmış yerlərin üzərinə düşə bilər və güclü yanğınların baş verməsinə səbəb olar.

Yüksəkliklərdə, dağ və dağətəyi yerlərdə avtomobil şinlərinin üst-üstə yığılaraq yandırılması yanğın cəhətdən daha təhlükəlidir. Belə hallarda yanan şinlər diyirlənərək ətrafdakı yaşayış sahələrində yanğın ocaqlarının yaranmasına səbəb olar. Novruz şənlikləri və tədbirlərinin keçirildiyi küçə və meydanlarda kütləvi şəkildə toplaşan insanlar xoşagəlməz hadisələrin baş verməməsi üçün mütləq qaydada bir-birlərinin təhlükəsizliyini qorumalıdırlar.

Novruz bayramının bir bəzəyi də xonça bəzəmək, şam yandırmaqdır. Bayram şənlikləri zamanı şam yandırılarkən yanğın təhlükəsizliyi qaydalarına diqqət yetirmək lazımdır. Unutmaq olmaz ki, yanar şamı öz ərintisi ilə stol, kibrit qutusu üzərinə və digər yanar materiallara yapışdırmaq yanğın təhlükəsizliyi cəhətdən yolverilməzdir. Yanar şamın nəzarətsiz qoyulması xoşagəlməz hadisələrin baş verməsi ilə nəticələnə bilər. Bayram tədbirləri zamanı əhali ilə yanaşı, idarə, müəssisə və təşkilat rəhbərləri, xüsusən mədəniyyət və təhsil müəssisələri yanğın təhlükəsizliyi qaydalarına nəzarəti gücləndirməli, tədbir keçiriləcək yerlərdə yanğın təhlükəsizliyinə cavabdeh şəxslər təyin etməli və qabaqlayıcı tədbirlər görməlidirlər.

Novruz şənliklərində xoşagəlməz hadisələrlə üzləşməmək üçün yanğın təhlükəsizliyi qaydalarına ciddi əməl etmək, baş verə biləcək yanğın hadisələrinin qarşısının vaxtında alınması üçün diqqətli olmaq lazımdır. Bayram tədbirləri və şənlikləri keçirilən zaman yanğın hadisələri ilə üzləşdikdə dərhal Fövqəladə Hallar Nazirliyinin "112" qaynar telefon xəttinə məlumat verməyi unutmayın.

Novruz bayramınız mübarək!

Fövqəladə Hallar Nazirliyinin
***Dövlət Yanğın Nəzarəti Xidmətinin Gəncə Regional Dövlət Yanğın Nəzarəti İdarəsi***

Baş redaktor:
ELÇİN İSMAYIL

TƏSİSÇİ:
QAZAX RAYON İCRA HAKİMİYYƏTİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

ÜNVAN:
QAZAX ŞƏHƏRİ,
H.Z.TAĞIYEV KÜÇƏSİ 20
TELEFON: 5-02-00, (baş redaktor)
5-12-27 (şöbələr)
MOB: (055) 621-03-53

KAPİTAL BANK
BANK HESAB
№ AZ69AIIB38060019443660233136
VÖEN: 4200134061 KOD: 200361
QEYDİYYAT №442
TİRAJ:1200 SİFARİŞ: 499

Məqalələrdəki faktlara görə müəlliflər cavabdehdir.
Əlyazmalar geri qaytarılmır.

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib.
Foto: Mehman Vələdov.